# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 354** **Bakı şəhəri, 14 avqust 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Aqrar-Elm Mərkəzinin və onun tabeliyindəki elmi-tədqiqat institutlarının strukturunun təkmilləşdirilməsi haqqında" 2015-ci il 17 aprel tarixli 109 nömrəli və "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 17 aprel tarixli 112 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

"Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının 2.8-ci bəndinə və 6.1.2-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** "Azərbaycan Aqrar-Elm Mərkəzinin və onun tabeliyindəki elmi-tədqiqat institutlarının strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 aprel tarixli 109 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 476) 1-ci, 12-19-cu hissələrində "Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi" sözləri "Aqrar Elm və İnnovasiya Mərkəzi" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 aprel tarixli 112 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 479, № 12, maddə 1572; 2016, № 6, maddə 1224, № 9, maddə 1569, № 11, maddə 1957; 2017, № 7, maddə 1496; 2018, № 4, maddə 828) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "I. Büdcədən maliyyələşdirilən qurumlar" bölməsinin 15-ci, 24-31-ci hissələrində "Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi" sözləri "Aqrar Elm və İnnovasiya Mərkəzi" sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***